YOX OLMA TƏHLÜKƏSİ İLƏ ÜZ-ÜZƏ OLAN TÜRKCƏ: XƏLƏC TÜRKCƏSİ

Elçin İbrahimov
filologiya elmləri doktoru, professor,
Azərbaycan Dillər Universiteti,
Türk Dünyası Araşdırmaları Mərkəzinin müdiri
Niyalə Əbilova
magistr, Azərbaycan Dillər Universiteti
https://doi.org/10.5281/zenodo.13767785

ANNOTATSIYA

Xalajlar Eron, Afg'oniston, Pokiston va boshqa mamlakatlarda qo'nim topgan turkiy xalqlar edi. Ularning tili Oltoy tillari oilasi turkiy tillar guruhining Argu kichik guruhiga kiradi. Ular Erondan tashqari o'zlari yashab turgan mamlakatlardagi boshqa xalqlar orasida assimilyatsiya qilingan. Hozirda Erondagi xalajlarning katta qismi ozarbayjonlar bilan qorishib ketgan bo'lsa-da, ularning oz qismi uy xo'jaligi darajasida o'z tilini saqlab qolgan.

Ozarbayjon tilini Erondagi turkiy etnoslar tili kontekstida o'rganish uchun, avvalo, bu tilning qanday muhitda, qanday sharoitda va o'zaro bog'liqlikda rivojlanishining o'ziga xos xususiyatlarini ko'rib chiqish zarur. qanday ijtimoiy va siyosiy voqealarga; Faoliyat sohasiga qarab rivojlanish va pasayish sabablarini aniqlash ham muhimdir. Ozarbayjon tilini Erondagi turkiy etnoslar tili kontekstida o'rganish jarayonida bir qancha o'xshash va turli xil xususiyatlar yuzaga keldi. Tadqiqot maqolamizda xalaj turkchasi va uning asosiy xususiyatlari haqida gapirishga harakat qilamiz.

KALIT SO'ZLAR

Xalajlar, turkiy tillar, ozarbayjon tili, turkiy etnos, yo'qolib borayotgan tillar.

XÜLASƏ

Xələclər – İranda, Əfqanıstanda, Pakistanda və digər ölkələrdə məskunlaşmış türkköklü xalqlardı. Dilləri Altay dil ailəsinin Türk dilləri qrupunun Arqu yarımqrupuna aiddir. İrandan başqa yaşadıqları

AÇAR SÖZLƏR

Xələclər, Türk dilləri, Azərbaycan dili, türk etnosları, təhlükəki dillər

ölkələrdə digər xalqlar arasında assimilyasiyaya uğramışlar. Hazırda İranda xələclərin böyük əksəriyyəti azərbaycanlılar ilə qarışsa da, az bir qismi öz dillərini məişət səviyyəsində qorumuşdur.

Azərbaycan dilini İrandakı türk etnoslarının dili kontekstində araşdırmaq üçün birinci növbədə bu dilin hansı mühitdə, hansı şəraitdə, hansı ictimai-siyasi hadisələrlə əlaqədar olaraq işlənmə özəlliklərinə nəzər salmaq lazımdır; həmçinin hansı areallardakı işlənməsindən asılı olaraq inkişaf və tənəzzül səbəblərinin aşkarlanması vacibdir. Azərbaycan dilinin İrandakı türk etnoslarının dili kontekstində araşdırılması zamanı bir sıra oxşar və fərqli xüsusiyyətlər meydana çıxmışdır. Araşdırma məqsədli yazımızda xələc türkcəsindən və onun əsas xüsusiyyətləri haqqında danışmağa çalışacağıq.

Giriş

Azərbaycanın Rus-İran müharibələrindən sonra, 1828-ci ildə iki hissəyə ayrılması ilə bu böyük xalq iki ayrı dominant mədəniyyətin nüfuz dairəsində yaşamalı olmuşdur. Cənubi Azərbaycanda (İran Azərbaycanı) yaşayan azərbaycanlılar şimalda başlayan müasir milli və mədəni hərakatlardan uzaq qalmış, klassik ədəbiyyat və yazı dili anlayışını davam etdirmişlər.

XIX əsrin əvvəllərindən başlayaraq İranda milli münasibətlər və azsaylı xalqların dillərinin statusu tarixən formalaşmış qaydalara görə tənzimlənirdi. Ərəb dili daha çox dini sahələrdə və ali təhsildə, fars dili kargüzarlıqda, yazışmalarda və təhsil sistemində işlədilirdi. Azərbaycan dilindən isə daha çox gündəlik məişətdə, sarayda və orduda şifahi şəkildə istifadə olunurdu. Qeyd olunan bu situasiya təəssüf ki, bəzi kiçik istisnalarla XX əsrin əvvələrinə qədər davam etmişdir.

Bununla bağlı Y. Hacıyeva yazır: "Yeganə istisna 1888-ci ildə Təbrizdə Azərbaycan dilində yeni tipli ibtidai məktəbin təsis edilməsi və ya Azərbaycan dilinin tədris sisteminə daxil olması idi. XX əsrin əvvələrində Konstitusiya (Məşrutə) inqilabı illərində (1905-1911) Azərbaycan dili mətbuata da daxil oldu. XX əsrin 30-cu illərindən başlayaraq İranda "vahid İran", "vahid millət" və "vahid dil" məsələsi, başqa sözlə, "paniranizm" rəsmi dövlət siyasətinə çevrildi" [Hacıyeva 2017, 23-24].

İranın müxtəlif bölgələrində başda Azərbaycan türkləri olmaqla, türkmənlər, xorasan türkləri, qaşqaylar, xələclər, sunqurlar kimi azsaylı türk xalqları yaşayır.

Bundan başqa, qazaxlar, özbəklər, əfşarlar, qacarlar, kəngərlilər, karayilər, bayatlar, qaragözlülər, qaraqalpaqlar, xəmsə türkləri, timurtaşlar və digər az sayda türk xalqları da yaşayır.

İranda aparılan əhalinin siyahıyaalınmalarda fərqli yanaşma və prinsiplər əsas götürüldüyünə görə, bu ölkədə yaşayan türklərin sayı ilə bağlı dəqiq məlumat əldə etmək mümkün deyildir. İrandakı türk xalqlarının sayı ilə bağlı ilk rəsmi məlumatlar 1949-cu ildə İran ordusu tərəfindən nəşr olunan 10 cildlik "İran Coğrafiya Ensiklopediyası"nda qeyd olunmuşdur.

Bu kitabda İranda sayı 500-ü keçən bütün kəndlərin adları, əhalisinin sayı və dilləri qeyd edilmişdir. Jan Paul Roks "Türklərin tarixi" adlı əsərində"İran əhalisinin 20%-nin Azərbaycan türklərindən, 10%-ni isə türkcə danışan başqa xalqlardan" [Roux 2007, 14] ibarət olduğunu söyləyir. Bəzi tədqiqatçılar İrandakı türklərin sayının 25 miliyon olduğunu qeyd edir. Bundan başqa, K. Güldikən 33 milyon [Güldiken 1998, 14], R. Blaqa 20 milyon [Rafael 1997, 14], M. Saray isə 25 milyon olduğunu qeyd edirlər. Dünya Bankının ölkələr üzrə məlumatlarına görə (2004-cü il) "İranın 66,1 miliyonluq əhalisinin 42%-ni türklər təşkil edir ki, bu da təxminən 25 milyonluq bir türk xalqı deməkdir" [Gökdağ 2004, 52].

Əsas hissə: Xələc türkcəsi

Xələc türkcəsi - İranın mərkəzində (Xələcistanda), Tehranın 160 km cənub-qərbində, Save, Qum və Ərak arasında yerləşmiş bir məntəqədə yaşayan xələc türklərinin danışıq dilidir.

Qədim mənbələrdə xalac adının qalac, kalac variantları özünü göstərir [Eyvazova, 1995, 12].

Divani Lüğəti-Türk də xələcə adı bu şəkildə izah olunur; "...İyirmi ikilər onlara Türkçə *kal aç* deyərlər, *"ac qal"* deməkdir. Sonradan bunlara *"Xalaç"* deyilmişdir; əsllləri budur" [Atalay, 1992, 145].

Oğuz Dastanında da *"Xələc"* sözünün bir Türk boyunun adı olaraq görülər və *"ac qalmaq"* deyimindən törəndiyi ifadə edilmişdir [Ögel 2010, 178].

Xalac adı ilə bağlı bir sıra mənbələrə istinad edərək, qeyd etmək lazımdır ki, "qədim türk qəbilələrindən xalaclar bilinməyən bir tarixdə Türküstandan köçüb Qərbi Əfqanıstanda yerləşmişdir. Bu qəbiləyə mənsub olanlar əsgər və dövlət adamı idilər. İçlərindən bir çoxu Qəznə və Qur hökmdarlarının xidmətində olmuş və sonralar Hindistanda böyük mövqelər əldə etmişdilər" [Eyvazova 1995, 174].

Xələcistanın mərkəzi Dəstgerddir. Bu şəhər Qumdan 64 km qərbdə yerləşir, lakin bu şəhərin özündə xələclər yaşamırlar. Xələclər kəndlidirlər və 57 kəndə səpələnmişlər. Xələclərin ən mühüm mərkəzi Təlxab (2000 nəfərə yaxın), Vaşqan (1300 nəfər), Nadirabad (1100 nəfər), Xələtabad (450 nəfər), Mənsurabad (400 nəfər) və Feyzabaddır (1000 nəfərdən çox), [Heyət 2011, 178].

Xələcistanın qərb məntəqələri - Təlxab, Xələtabad və Feyzabad, şərq hissədə yerləşən kəndlərdən daha çox fars dilinin təsirinə məruz qalmışdır. Bu məntəqədə xələclərin sayı 30 min nəfərdən yuxarıdır. Buradakı insanların çoxu kasıb olub, başqaları üçün iş görər və suyun azlığı səbəbindən digər məntəqələrə köç edərlər. Yuxarıda zikr olunan səbəbləri də nəzərdə tutaraq, bu məntəqədə araşdırma aparan bir sıra alimlər (prof. Dorfer və həmkarları) belə nəticəyə gəlmişlər ki, xələc türkcəsi tədricən istifadədən çıxaraq yox olacaqdır. Xələclərin bir hissəsi də qaşqaylar arasında yaşayırlar və məlum olduğuna görə, xələc türkcəsi qaşqayların əmələ qəbiləsinin türkcəsi ilə əlaqədardır. Onların arasında cüzi fərq vardır.

Xələcistan sakinləri şiə məzhəbli müsəlmanlardır. Kişilərin çoxu iki və ya üç dildə (xələc türkcəsi, fars dili və azəri türkcəsi) danışırlar. Uşaqlar isə xələc türkcəsini anlasalar da, daha çox farsca danışırlar.

Xələc türkcəsi 6 türk dili qrupunun heç birinə (cənub-qərbi ya oğuz, şərqi ya uyğur-özbək, şimal-qərbi ya qıpçaq qrupu, şimal-şərqi ya cənubi - Sibir, yaqut və çuvaş) aid olmayıb, müstəqil ləhcədir və türk ləhcələrinin ən qədimidir. Xələc türkcəsində qədim türk dillərinin izləri (göy türk) və hətta ana türkcə (prototürk) qalmışdır və bu xüsusiyyətilə türk dilçiliyi baxımından mühüm əhəmiyyətə malikdir.

İran xələcləri və onların dili haqqında xarici şərqşünaslardan Minorski və Dorfer, iranlı tədqiqatçılardan M.Müqəddəm əhəmiyyətli tədqiqatlar aparmış və bu ləhcənin xüsusiyyətlərini müəyyən etmişlər.

M.Müqəddəm bu məntəqədə Vəfəs, Aştiyan və Təfrəş dialektlərinin tədqiqatı, onların xələc və azəri ləhcələri ilə oxşarlıq və fərqlərini toplayıb araşdırma apararaq, 1318-ci ildə Tehranda "İrankudə" jurnalında nəşr etdirmişdir.

Prof. Minorski öz araşdırmalarının nəticələrini 1940-cı ildə *"Bulten of the Society of Oriental and African Studies"* jurnalında *"The Turkish of Khalaj"* adı altında Londonda çap etdirmişdir.

Getingen Universitetinin (Almaniya) professoru Gerhard Dorfer M.Müqəddəm və Minorskinin araşdırmaları ilə tanış olduqdan sonra, İranın xələclər yaşayan məntəqələrini görmək və xələclərin dilini tədqiq etmək üçün 1968-ci ildə İrana bir heyət yollayır. Bir il sonra özü də bu heyətlə birgə İrana gələn Dorfer 1971-ci ildə öz araşdırmalarının nəticələrini M.Müqəddəmin yazıları ilə müqayisəli şəkildə *"Khalaj materials"* adı altında nəşr etdirmişdir. Bu kitab ingilis dilində yazılmış və Amerikada, İndiana Universitetinin Ural-Altay araşdırmaları departamenti tərəfindən çap edilmişdir. Prof. Dorfer öz kitabında M.Müqəddəmin farsca kitabından bir hissəni əlyazması şəklində vermişdir. Dorferin təşkil etdiyi heyətin xələc dili haqqında araşdırmaları və nəşrləri sonralar da davam etmiş, Dorfer

və həmkarlarının (dr. Semih Tezcan və b.) alman, ingilis və türk (İstanbul türkcəsi) dillərində məqalələri çap olunmuşdur.

Dilini qoruyub saxlayan Xələc türklərinin bu gün yaşadığı yeganə yer İrandır. Əfqanıstanda yaşayan Xələc türklərinin puştun dilli topluluqlara assimilyasiya olunduğu bildirilir. İranda Xələc türkləri dar və kiçik bir mühitdə yaşayaraq dil adasını təşkil edirlər. Özlərini Xələc olaraq təyin edən Xələc türklərinin İranda yaşadıqları coğrafiya geniş mənada İranın mərkəzi hissəsində, paytaxt Tehranın cənub-qərbində, Qum və Mərkəzi əyalətlərdə kənd və qəsəbələr kimi təsvir edilə bilər [Akkuş 2021, 63].

Bəzi tədqiqatçıların Xələc türklərinin yaşadıqları bölgələr və əhalisi ilə bağlı məlumat verməməsi diqqət çəkir. Ola bilsin ki, bu vəziyyəti İranın ictimai-siyasi quruluşu ilə əlaqələndirmək olar. Başqa sözlə, mərkəzləşdirilmiş inzibati struktura malik olan İranda dil icmalarının əhalisi və onların danışanları ilə bağlı məlumatlar İranın rəsmi Statistika İnstitutu tərəfindən ictimaiyyətlə paylaşılmır. Bu vəziyyətin İranın dil siyasəti ilə əlaqəsi olduğunu söyləmək olar.

Qeyd etmək olar ki, İranın ortaq ünsiyyət dili olan fars dilinin nüfuzuna görə xələc dili icmaları tərəfindən yeni nəsillərə nisbətən az ötürüldüyündən, xələc dilinin etnolinqvistik canlılığı gündən-günə azalmağa meyllidir. Standart yazı dili olmadığından, xələc yazılı ədəbiyyatı həvəskar şəkildə özünü göstərməyə çalışır. Dili qorumaq və canlandırmaq məqsədi ilə ərazinin tanınması müvafiq təhsil dilçiləri, antropoloqlar və etnoloqlar sözügedən dil coğrafiyası ilə bağlı araşdırmalar aparmasalar və İran təkdilli dövlət siyasətini davam etdirsə, yaxın gələcəkdə xələc dili ölü dillər sırasında sayıla bilər. Bu baxımdan, İran coğrafiyasında danışılan digər türk dilləri (Xorasan türkcəsi, qaşqay türkcəsi və s.) ilə yanaşı, xələc dili ilə bağlı dil və sosiolinqvistik məlumatların toplanması vacibdir [Akkuş 2021, 73].

Xələclər barəsində daha dəqiq məlumatlar Bilal Hatəmi tərəfindən verilmişdir. Xələclərin toplum və kültürünü araşdırmış, hansı problemlərlə qarşılaşdıqlarını üzə çıxarmışdır. Daha çox yaşlı xələclərlə söhbət etmişdir. Xələclərlə bağlı B.Hatəmi "Amerikanın səsi" proqramında on doqquz dəqiqəlik müsahibəsi var. Onun müsahibəsinə , əsasən, deyə bilərik ki, O ilkin olaraq xələclərin XV əsrdən Qum şəhərinin qərbində məskunlaşdığını qeyd etmişdir. Rəsmi olaraq xələclərin hazırki əhali say bilinmir, təxminən 66 min nəfər olduğu qeyd alınır. Əhalinin 60 min nəfəri şəhərlərdə, 6 mini isə kəndlərdə yaşadığı deyilir.

Xələc türkcəsi təhlükədə olan dillər qrupuna, hətta yaxın gələcəkdə ölü dillər qrupuna da daxil ola bilər. Xələclər öz dillərini qoruya bilmirlər. Şəhər kültürünə qarışmış xələclər demək olar ki, öz dillərində istifadə etmirlər. Farsca danışmağa üstünlük verirlər. Dili bu dövrdə yaşadan sadəcə olaraq yaşlı xələclərdir.

Şifahi xalq ədəbiyyatına aid nümunələr tamamilə unudulmuşdur. Xələc dilində laylalar, mərsiyələr, musiqilər təəssüf ki, xatırlanmır. Dilin kültürünə təsir edən məqamlardan biri də xələclərin ayrı-seçkiliyə məruz qalmasıdır. Belə ki, Qum şəhərində şahsevənlərlə birgə yaşadıqları vaxtdan etibarən " O, xələcdir " adı altında ayırd edilmişlər.

B.Hatəmi araşdırmalarında son olaraq belə nəticəyə gəlir ki, kültür tamam ölmüş, dil isə yaşamaqdadır. Amma XXI yüzilliyin xələclər üçün ölüm yüzilliyi olacağını qeyd etmişdir. Dili yaşatmağın yollarından biri olaraq gənc xələclərin tədbirlər həyata keçirməsində görmüşdür.

Qrammatik xüsusiyyətləri

Ən qədim türkcələrdən olan Xələc türkcəsinin əsas xüsusiyyətlərini bir neçə başlıq altında vermək istərdik:

1) Sözlərin əvvəlində gələn *"h"* sistematik olaraq ana türk dili dövründən (qədim türk dilindən əvvəl, miladi VI-VII əsrlər) qalmışdır. Digər türk dillərində (Azərbaycan, qumuq, özbək, yeni uyğur və qaraqalpaq) çox nadir rast gəlindiyi halda, xələc türkcəsində qorunmuşdur. Məsələn: *haz (az), hağac (ağac), hüzüm (üzüm), hev (ev), hocaq (ocaq), hətək (ətək), histi (isti),* [Heyət 2011, 178].

Azərbaycan türkcəsində də bir sıra sözlərdə (məsələn: hörmək) *"h"* saxlanmışdır.

G.Dorferin fikrincə, *"h"* prototürk dövründən qalmış və əvvəllər *"p"* olmuşdur. Alimə görə, xələc türkcəsi qədim türk, yəni Orxon kitabələrində qalmış göy türklərin dilindən də qədimidir [Doerfer 1971, 163].

2) Oğuz türkcəsi və bir çox ləhcələrində *"y"*-yə çevrilmiş türk dili *"ny"*-si, xələc türkcəsində qədim Arqu türkcəsində olduğu kimi, *"n"*-yə çevrilmişdir. Məsələn: qədim türkcədə *"kony",* müasir türkcədə *"koyun"* və azəricədə *"qoyun"* kimi səslənən sözə xələc türkcəsində *"kon"* deyilir.

3) "d" səsi qədim türkcədə olduğu kimi, xələc türkcəsində də qorunub saxlanmış və *"y"*-yə çevrilməmişdir. Məsələn: *hadaq (ayaq), qudruq (quyruq), boda (boya), bod (boy), odğan (oyanmaq), udu (uyumaq), had-ru (ayrı), qadun (qayın), yid (iy), dumruq (yumruq)* və s.

4) Sözlərin əvvəlində *"y"* əksər hallarda qorunmuşdur, məsələn: *yil (il), yiplik (iplik), yiti (iti), yiraq (iraq).*

5) Qərbi türk ləhcələrindən fərqli olaraq, sözlərin əvvəlində *"d"* yerinə *"t"* vardır. Məsələn: *til (dil), tiş (diş), töş (döş), tırnaq (dırnaq), tiz (diz), tərе (dəri), tar (dar), tola (dolu), tört ya tert (dörd)*. Qədim türkcə və şərqi türk dillərində də belədir (Heyət, 2011, s.178).

6) Qədim türkcədə olduğu kimi, sözlərin əvvəlində *"g"* yerinə *"k"* vardır. Məsələn: *kün ya kin (gün), kecə (gecə), ker (görmək), köz ya kez (göz)* [Atalay 1992, 59].

7) Bir çox sözlərdə qədim türkcənin *"q" (ğ)* və *"g"* səsləri qorunmuşdur. Məsələn: *siçqan (siçan), tonquz (donuz), tavuşqan (tavşan ya dovşan), yüng (yün), qazqan (qazan), yekgə (yekə), qurruq (quru), qısqa (qısa), kürkəg (kürək).*

8) Azərbaycan türkcəsində *"x"* ilə bitən sözlər xələc türkcəsində *"q"* ilə bitir. Məsələn: *toq (tox), qulaq (qulax), bormaq (barmax), torpaq (torpax), uzaq (uzax).* Çox hallarda *"q"* səsi *"k"*-yə oxşayır.

9) Sözlərin ortasında da *"ğ"* çox zaman *"q"* tələffüz edilir. Məsələn: *boqarşaq (bağırsax), oqlan (oğlan), boquz (boğaz), taq (dağ), yoqqar (yuxarı)*.

10) Sözlərin sonunda çox halda *"e"* və *"ə"* qorunmuş və *"i"*-yə çevrilmişdir. Məsələn: *tişe (dişi), təre (dəri), tola ya tole (doli = dolu), alta (altı)*.

11) *"c"*-yə yalnız alınma sözlərdə rast gəlinir.

12) *"deyil"* sözü yerinə qədim Arqu türkcəsində olduğu kimi *"dağ"* işlənir.

13) Üçnövlü saitər (qısa, uzun, diftonq) ana türk dili zamanından saxlanmışdır. Türk dilinin digər ləhcələrinin çoxunda isə saitlər qısa və ya daha qısadır. Məsələn: *uon (on), hou ya hev (ev), kuz (göz), qol (qol), çolaq (çolaq), yorqan (yorğan).*

14) Çıxışlı tamamlıq (isimin çıxışlıq halı) qədim türk dilində olduğu kimi, - *da,* - *də* işlənmişdir. Türkcədə isə - *dan,* - *dən* işlənir.

15) Yerlik tamamlıq (yerlik halı) - *çe,* - *ça* işlənir; müasir türkcədə - *da.* - *də* işlənir.

16) Gələcək zaman son şəkilçisi (- *caq,* - *cək)* yerinə - *ğa,* - *qa* işlənir. Məsələn: *biliqam (biləcəyəm), biliqay (biləcəksən),* [Heyet 1367, 13-15].

Bəzi xələc ləhcələrində (Çahək və Mehrzəmin) gələcək zamanı bildirmək üçün - *güluk* son şəkilçisi işlənir.

Məsdər əlaməti *"mək"* və *"maq"*dır. Bəzən də *"gəli", "qalı"* deyilir. Məsələn: *kəlgəli, ya kəlmək (gəlmək), varqali, ya varmaq (getmək).*

Prof. Dorfer xələc türkcəsi ilə qədim Arqu türkcəsinin müştərək xüsusiyyətlərini *("ny"* səsinin *"n"*-yə çevrilməsi, *"dağ"*-ın *"deyil"* yerinə işlənməsi, *"i"* və *"ı"*-nın *"u"*-ya (məsələn: *vardum, gəldum*) və bəzi sözlərdə *"z"*-nin *"d"*-yə çevrilməsi) müşahidə etdikdən sonra belə bir nəticəyə gəlir ki, İranın mərkəzindəki xələclər elə Mahmud Kaşğarlı zamanından, yəni 900 il əvvəl Orta Asiyada, İsficab (Təraz) və Balasağun arasında yaşayan və soqdilərin türkləşməsindən əmələ gəlmiş arqların xələfləridirlər [Doerfer 1971, 173).]

Bu yerdə ortaya bu nəzəriyyənin qəbulunu çətinləşdirən bir problem çıxır. Çünki əvvəldə verilmiş izaha görə, xələc türkcəsini ana türk dilinin (prototürk) qalığı hesab edirlər; digər tərəfdən də Mavərənnəhr soqdiləri göy türklər bu məntəqəni tutduqdan sonra, yəni miladi VII əsrdən bu yana türklərin hakimiyyəti altına düşmüş və onlarla yaxın təmasda olmuşlar. Beləliklə, onların türkcəsi, ana türkcədən, yəni VII əsrdən əvvəlki türkcə ola bilməz.

Xələc türkcəsində azəri türkcəsinin doqquzluq saitləri mövcuddur, lakin bundan əlavə uzun saitlər və hətta diftonq şəkli belə vardır. Mənsurabad və Feyzabad ləhcələri kimi cənub ləhcələrində *"ö"* və *"ü" "i"*yə çevrilmişdir. Lakin Təlxab şimali ləhcəsində və həmçinin Xələtabad ləhcəsində "ö" və "ü" qorunmuşdur. Məsələn: Təlxabda *"tört" (dörd)* və Mənsurabadda *"tırt"* ya *"tyert"* deyilir. Bu baxımdan, cənubi xələc ləhcəsi qərbi Xorasan türkcəsinə və Fars əyalətinin Əbiverdi türkcəsinə oxşardır. Çünki qərbi Xorasan ləhcəsində də (Bocnurd, Coveyn və Səbzəvar ətrafı) *"ö"* yerinə *"e"* və *"ü"* yerinə *"i"* deyilir.

Qərbi dialekt fars dilinin təsiri altına daha çox düşmüş və fars sözləri burada çoxdur. Nümunə üçün Mənsurabad və Xələtabad dialektlərini müqayisəli şəkildə təhlil edək:

***Mənsurabad* (şərqi dialekt)**	***Xələtabad* (qərbi dialekt)**
bil (bel)	kəmərbənd
boğarsuq	rude
haçuq (acı)	zar – zəhr
kirik (kürək)	paru
gövərçin	kəbutər
qudruq	dom

Təlxab ləhcəsində *"i"* və *"ı"* birinci hecadan sonra *"ü"*yə və *"u"*-ya çevrilir: *"kişi babası" yerinə "kişi babasu" (qaynata).*

Dorferin heyəti 32 xələc kəndini gəzmiş və 3 kənddən - Təbcab (şimal- qərbi), Xələtabad (cənub-qərbi) və Mənsurabad (cənub-şərqi) sözlər və materiallar toplayaraq, onların əsasında xələc türkcəsində 541 sözün siyahısını nəşr etmişlər.

Təlxab dialektində olan sözlərin siyahısında 319 işlək sözdən 40-ı və Mənsurabad sözləri siyahısında isə 100 sözdən 5-i fars dilindədir [Heyət 2011, 201]

M.Müqəddəmin siyahısında da oxşar hal müşahidə olunur, yəni Təlxabdan toplanmış 302 sözdən 50-si farscadır.

Aşağıdakılar isə xələc və Azərbaycan türkcələrindəki fərqli sözlərə misaldır:

Xələc	***Azəri***	***Fars***
hər	kişi	mərd
bere, biri*	qurd	qorg

* Ulduz ilə işarələnmiş sözlər qədim türk dilindədir.

baluq, baliq*	şəhər	şəhr
işik	qapı	dər
hikmək*	çörək	nan
idi*	yiyə	saheb
buz	soyuq	sərd
ilgər*	qabaq	celou
həy, hay	söyləmək	qoftən
xoda	tanrı, tarı[1]	xoda

Feilin təsnifi: *Xələc türkcəsində zamanların sayı məhduddur.*

"Oturmaq" feili

İndiki zaman(mən otururam)

Mən yuvurum *Biz yuvurimiz*
Sən yuvuri *Siz yuvuriz*
O yuvurur *Onlar yuvurilər*

Şühudi keçmiş(mən oturdum)

Mən yuvurdum *Biz yuvurdux*
Sən yuvurdi *Siz yuvurdiz*
O yuvurdi *Onlar yuvurdilər*

Gələcək zaman(mən oturacağam)

Mən yuvurqulukam *Biz yuvurqulukak*
Sən yuvurqulukay *Siz yuvurqulukayiz*
O yuvurqulukar *Onlar yuvurqulukalar*

Bəzi araşdırmalara görə Xələclərin XIX əsrdə Cavad qəzasında yaşadığı qeyd edilir. Müasir dövrümüzdə Azərbaycanda 5 rayonun ərazisində (Abşeron, Qubadlı, Şərur, Salyan, Ucar) Xələc kəndlərinin olması, təsadüfi deyildir [Hesenov 1992, 17]

Belə nəticəyə gəlmək olar ki, xələc türkcəsini yaşatmaq üçün müasir dövrün tələblərinə uyğunlaşmaq lazımdır. Bildiyimiz kimi dili yox olmaqdan qoruyan əsas amillərdən biri təhsil və tədris məsələsidir. Çünki bir dildən tədris prosesində istifadə olunmasa, o dil yaxın gələcəkdə yox ola bilər. Bundan başqa XXI əsrin texnologiya əsri olduğunu nəzərə alsaq, deyə bilərik ki, Xələc toplumunun üzvləri internet və sosial saytlar vasitəsi ilə yaşada bilər. Saytlarda xələc folkloruna aid nümunələr xələc türkcəsi ilə verilə bilər.

Tədqiqata cəlb olunan problemin aktuallığını nəzərə alaraq, qeyd etmək lazımdır ki, İran etnoslarının dilinin araşdırılmasının, konkret olaraq

[1] Başqırd türkcəsindən başqa, bütün türk dillərində (qədim və yeni) "tanrı" sözü müxtəlif tələffüzlərlə işlənir.

xələclərin dili ilə müqayisəli qarşılaşdırma metodlarından istifadə etməklə tədqiqi nəzəri və praktik cəhətdən böyük əhəmiyyətə malikdir. Bu işdən nəzəri qrammatika və türk dillərinin müqayisəli tədrisində, dialekt və ləhcələrin öyrənilməsi ilə əlaqədar mühazirə və seminarlarda, xüsusi kurslarda mənbə kimi istifadə edilə bilər.

Nəticə

Azsaylı türk xalqlarının əsas yaşadıqları ölkələr RF, ÇXR və İİR-dir. Bu gün bu dövlətlər müəyyən siyasi məqsədlərlə türk toplumlarına qarşı təcrid siyasəti yürüdürlər. Çin ölkədəki azsaylı türk dillərini təzyiq altında saxlayır, bu dillərin qorunmasına təminat verməmək bir yana, onların normal inkişafına belə mane olur. Rusiya isə çoxlu sayda yazı dili formalaşdırmış, müsəlman-türk xalqlarını mərhələli şəkildə ərəb əlifbasından uzaqlaşdırıb kiril əlifbasına keçirmiş, milli mövzulara dərs kitablarında yer verməmiş, türkoloji qurultaylara qatılan türk əsilli alimləri, hətta rusları belə ciddi təqiblərlə üz-üzə qoymuşdur. Bu gün Rusiya, Çin və İran kimi ölkələrdə çoxlu sayda azsaylı türk xalqları yaşayır. Hər üç ölkədə həyata keçirilən dil siyasəti və dillə bağlı qəbul edilən qanunlar orda yaşayan azsaylı türk xaqlarının dillərini təhdid və təhlükə altına qoyur. Hazırda dünyanın başqa ölkələrində yaşayan (əsasən, Moldova, Gürcüstan, Latviya, Macarıstan, Monqolustan və d.) azsaylı türk dilləri də artıq bir dil kimi yox olmaq təhlükəsi ilə qarşı-qarşıyadır. Dünyanın müxtəlif regionlarında azsaylı türk xalqlarının dillərində danışanların sayının gündən-günə azalması bu gün təhlükə altında olan həmin dillərin yaxın gələcəkdə yox olması ilə nəticələnə bilər.

Müstəqil türk respublikalarında və digər azsaylı türk xalqlarının yaşadıqları ölkələrdə aparılan dil siyasətinin araşdırılması, dillərin hazırkı vəziyyətinin təsviri və problemlərinin müəyyənləşdirilməsi gələcəkdə türk dünyasında elmi əməkdaşlıq münasibətlərinin qurulmasına, dil siyasətinə dair plan, layihə və proqramların qəbulu və icrasına öz töhfəsini verə bilər. Müstəqil türkdilli dövlətlərdə həyata keçirilən dil siyasətinin izlənilməsi gələcəkdə ortaq dil, ortaq əlifba və ortaq elmi-mədəni dəyərlərin fomalaşdırılması baxımından da əhəmiyyət kəsb edir.

Təhlükə altındakı azsaylı türk xalqlarının dillərinin yox olmasının qarşısının alınması və varlığının qorunması ilə bağlı müəyyən tədbirlər görülür. Bunlardan biri nəsillərarası dil əlaqəsinin inkişaf etdirilməsinə önəm verilməsidir. Bir dilin var olması, yaşaması üçün, bəlkə də, ən birinci və əsas faktor o dilin yeni doğulan uşaqlar, yəni yeni nəsil tərəfindən danışılmasıdır. Bunun təmin edilməsinin konkret göstəricisi o dilin məktəblərdə tədris olunmasıdır. Qeyd etdiyimiz kimi türk xaqlarının bir çoxu yaşadıqları ölkələrdə azsaylı xalqlar olduqları üçün dilləri də rəsmi dil statusunda deyildir.

Rusiya Federasiyasın, Çin Xalq Respublikası və İran İslam Respublikasının ali qanunvericiliyində – konstitusiyalarında azsaylı türk xalqlarının dillərinin dövlət

tərəfindən qorunmasına təminat verilməməsi bu ölkələrdə yaşayan türk xaqlarının dillərinin və mədəniyyətlərinin mövcudluğunu davam etdirməsini çətinləşdirir. Çində uyğurlara qarşı yürüdülən siyasəti, RF-də 2018-ci ildə Duma tərəfindən azsaylıların milli dillərində təhsil almasına rəsmi qadağanın qoyulmasını və İranda xələclərin və Xorasan türkcəsinin sıxışdırılmasını buna örnək göstərə bilərik.

Ədəbiyyat

1. Akkuş, M. 2021. *İranda yok olma tehlikesi altındaki bir türk dili*. İRTAD.
2. Atalay, B. 1992. *Divanü Lügat-it-Türk Tercümesi*. Ankara: TDK Yayınları.
3. Doerfer, G. 1971. *Khalaj Materials*. Bloomington: Indiana University.
4. Eyvazova, R. 1995. *Əfqanıstanda türk mənşəli toponimlər*. Bakı: Elm.
5. Gökdağ, A.B. 2004. *İran Türklerinde Kimlik Meselesi*. Ankara: *Bilig*. Sayı 30, s. 52-61.
6. Güldiken, K. 1998. *İranda Yaşayan 33 miliyon Türkü Düşününüz*. Ankara: Azerbaycan.
7. Hacıyeva, Y.Ə. 2017. *İran İslam inqilabından sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər)*. Bakı: Adiloğlu.
8. Heyət, C. 1367. *Torki Xələc*. Varlıq. Tehran, 1367. № 4 (70).
9. Heyət, C. 2011. *Dilimiz, Ədəbiyyatımız və Kimliyimiz Uğrunda*. Bakı: Elm və təhsil.
10. Həsənov, N. 1992. *Xalaclar və onların tarixdə rolu*. Bakı: Tarix.
11. İbrahimov, E. (2020). Azerbaycan'da Dil Politikalarının Toplumdilbilimsel Paradigmaları. *Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi, SUTAD*, Aralık, (50): 27-41.
12. İbrahimov, E. (2023). Language Policy in Turkic States and Societies Historical Aspect. *Selçuk Türkiyat*. (60): 327-352. Doi: 10.21563/sutad.1405537
13. İbrahimov, E. (2023). Müasir Türk toplumlarında dil siyasəti (Gürcüstanda Türk dili ilə bağlı aparılan dil siyasəti). *Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi*, 12(2), 473-481, Doi: 10.30563/turklad.1318704
14. İbrahimov. E. (2020). Rusiya Federasiyasının azsaylı türk xalqlarına qarşı dil siyasəti. *Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (TÜRKLAD).* 4. Cilt. 2. Sayı. s. 206-222.
15. Minorsky, V. 1940. The Turkish Dialect of the Khalaj, *Bulletin of the School of Oriental Studies*, University of London Vol. 10, No. 2 (1940), pp. 417-4371.
16. Ögel, B. 2010. *Türk Mitolojisi*. Ankara: Türk Tarih Kurumu Yayınları.
17. Rafael, B. 1997. *İran Halkları El Kitabı*. Ankara: Yeni Zamanlar Dağıtım.
18. Roux, J.P. 2007. Türklerin Tarihi (Pasifik'ten Akdeniz'e 2000 Yıl). İstanbul: Kabalcı Yayınları.